# Büdcə müzakirələri davam etdirilib

**Noyabrın 20-də Milli Məclisin Gənclər və idman, İctimai birliklər və dini qurumlar, Mədəniyyət komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclis Sədrinin müavini Rafael Hüseynov çıxışında Azərbaycanın 33 illik müstəqillik tarixindən söz açıb. O bildirib ki, bu dövr ərzində əldə edilən ən böyük nailiyyətimiz müstəqillikdir və bu gün ölkəmiz müstəqil dövlət kimi güclü inkişaf yolundadır. Rafael Hüseynov 1991-1992-ci illəri xatırlayaraq, müstəqilliyimizin ilk illərində zəif olan büdcə və manatın gündən-günə dəyərdən düşdüyünü, lakin bu gün müzakirəyə təqdim olunan büdcənin 40 milyard manata yaxınlaşdığını bildirib. Bu artım Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir.

Rafael Hüseynov həmçinin Heydər Əliyevin müstəqilliyin ilk illərində ölkəmizi ağır vəziyyətdən çıxararaq, möhkəm təməllər üzərində inkişafını təmin etməyi bacardığını vurğulayıb. O, bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın bütün sahələrdə mühüm uğurlar qazandığını və güclü iqtisadiyyatın demokratik, hüquqi dövlətin əsası olduğunu qeyd edib. Həmçinin Azərbaycanın əldə etdiyi Zəfərin möhkəm iqtisadi potensiala əsaslandığını, ölkə rəhbərinin həm böyük siyasətçi, həm də iqtisadiyyatçı olduğunu bildirib.

Büdcə layihəsinin Maliyyə Nazirliyi və əlaqədar qurumların böyük zəhməti bahasına hazırlandığını deyən vitse-spiker xüsusi vurğulayıb ki, bu sənədin əsas müəllifi ölkə Prezidenti cənab İlham Əliyevdir.

Sonra söz alan maliyyə naziri Samir Şərifov çıxış edərək, əvvəlcə cari il sentyabrın 1-də keçirilmiş növbədənkənar parlament seçkilərindən sonra formalaşmış VII çağırış Milli Məclisin yeni tərkibini təbrik edib və deputatlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Daha sonra Samir Şərifov "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini təqdim edib.

Maliyyə naziri 2025-ci il dövlət və icmal büdcələrinin layihələrinin, həmçinin növbəti il üçün icmal büdcənin əsas göstəricilərinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim olunduğunu bildirib. O deyib ki, layihə hazırlanarkən Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair milli prioritetlərinin ehtiva etdiyi məqsədlərin reallaşdırılması vəzifəsi rəhbər tutulub, gözlənilən meyillər, həmçinin qlobal iqtisadiyyatda gedən proseslərin icmal və dövlət büdcələrinin göstəricilərinə ehtimal olunan təsirləri nəzərə alınıb. Bu zaman əsas prioritetlər kimi ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsi, Qarabağ və Şərqi Zəngəzur rayonlarının bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası və bu ərazilərə Böyük qayıdışın təmin edilməsi, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası əsas vəzifələr kimi qəbul edilib. Bununla yanaşı, əməkhaqqı, pensiya, sosial təminat, ünvanlı sosial yardım və təqaüd xərclərinin, səhiyyə, təhsil, mədəniyyət və ölkəmizin ərzaq təhlükəsizliyinin, beynəlxalq fəaliyyətlə əlaqədar xərclərinin, dövlət borcuna xidmətlə bağlı xərclərinin, bir sözlə, dövlətin əsas funksiyalarının yerinə yetirilməsi üçün tələb olunan bütün xərclərin maliyyə təminatı üçün müvafiq məbləğdə vəsait dövlət büdcəsində proqnozlaşdırılmışdır.

Bildirilib ki, 2025-ci ilin dövlət büdcəsinin xərcləri 41367,7 milyon manat nəzərdə tutulur ki, bu da 2024-cü illə müqayisədə 1625,0 milyon manat və ya 4,1 faiz çoxdur. Layihəyə əsasən, 2025-ci il üçün dövlət büdcəsinin gəlirləri 38316,0 milyon manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilin proqnozu ilə müqayisədə 1928,0 milyon manat və yaxud 5,3 faiz çoxdur.

Dövlət gəlirlərinin 49 faizi və ya 18773,0 milyon manatı neft-qaz sektorunun, 51 faizi və ya 19543,0 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşür, bu isə cari illə müqayisədə 924,0 milyon manat və yaxud 5 faizdən artıqdır.

Diqqətə çatdırılıb ki, Dövlət Neft Fondunun dövlət büdcəsinə transferti hesabına 14481,0 milyon manat gəlirlər təmin olunacaqdır. Gələn il vergi orqanlarının xətti ilə 15500,0 milyon manat məbləğində daxilolmalar nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 230,0 milyon manat və ya 1,5 faiz çoxdur. O cümlədən qeyri-neft sektoru üzrə 11670,0 milyon manat, cari illə müqayisədə 980,0 milyon manat və ya 9,2 faiz çox vəsaitin daxil olması nəzərdə tutulur. Gömrük orqanlarının xətti ilə büdcəyə 6600,0 milyon manat, cari illə müqayisədə 165,0 milyon manat və ya 2,6 faiz çox daxilolmanın təmin edilməsi nəzərdə tutulur.

2025-ci il üçün dövlət büdcəsi kəsirinin yuxarı həddi 3052,0 milyon manat məbləğində nəzərdə tutulub. Cari illə müqayisədə 303,0 milyon manat və ya 9 faiz artacaqdır. Dövlət büdcəsi kəsirinin ÜDM-də xüsusi çəkisi 2,4 faiz təşkil edəcək. Büdcə kəsirinin maliyyələşdirilməsi ənənəvi mənbələr hesabına - özəlləşmədən daxilolmalar, daxili və xarici borclanma və 2025-ci ilin 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının və məqsədli büdcə fondlarının sərbəst qalığı hesabına örtülməsi nəzərdə tutulur.

Qeyd olunub ki, ölkə Prezidenti gələn ilin əsas prioritetləri sırasına ölkənin hərbi potensialının gücləndirilməsi, milli təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması və hərbi sənaye kompleksinin inkişafı ilə bağlı xərcləri daxil etmişdir. Bu tapşırıqlardan irəli gələn vəzifələrin icrası, eləcə də son vaxtlar Ermənistanın genişmiqyaslı militarizasiya siyasətinə qarşı cavab tədbirlərinin görülməsi məqsədilə ölkəmizin müdafiə və milli təhlükəsizlik xərclərinin artırılmasına xüsusi diqqət yetirilməsi vacibdir. Buna əsasən, müdafiə və milli təhlükəsizliklə bağlı xərclərə 20,3 faiz həcmində və ya 8396,0 milyon manat məbləğində vəsait nəzərdə tutulub. Bu 2024-cü ilin proqnozu ilə müqayisədə 17,8 faiz və ya 1270,0 milyon manat çoxdur.

Bu il olduğu kimi, növbəti ilin prioritet xərcləri sırasında xüsusi yer verilən istiqamətlərdən biri də Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üçün 4 milyard manat vəsait nəzərdə tutulub.

Digər prioritet istiqamət - Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulmuş sosialyönümlü tədbirlərin maliyyələşdirilməsi üçün 893 milyon manat və investisiyayönümlü layihələr üçün 1100,0 milyon manat, cəm olaraq 1993,0 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrası üçün 150 milyon manat vəsait ayrılacaq.



Diqqətə çatdırılıb ki, vətəndaşların rifahının yaxşılaşdırılması, sosial müdafiəsinin təmin edilməsi də növbəti ildə prioritet məsələlər olaraq nəzərdə saxlanılır. Belə ki, 2025-ci il üçün dövlət büdcəsinin sosialyönümlü xərcləri 2024-cü illə müqayisədə 1370,0 milyon manat və ya 8,8 faiz artırılaraq 16910,0 milyon manata çatdırılır. Bu dövlət büdcəsinin xərclərinin tərkibində sosialyönümlü xərclərin dövlət büdcəsində çəkisi 41 faizə qədər yüksələcəkdir. Əməkhaqqı, pensiya və sosial müavinətlər, ünvanlı sosial yardım və təqaüd xərcləri üzrə minimum əməkhaqqı, minimum pensiya, minimum ehtiyac meyarı, yaşayış minimumunun artımları üçün müvafiq məbləğdə vəsait nəzərdə tutulub.

Bildirilib ki, büdcə layihəsində digər prioritet sahə olan - təhsil xərclərinə 4946,0 milyon manat proqnozlaşdırılır və bu, 2024-cü illə müqayisədə 396,0 milyon manat və ya 8,7 faiz çoxdur. Gələn il dövlət və icmal büdcələrində səhiyyə xərcləri üçün ümumilikdə 3525,0 milyon manat vəsait nəzərdə tutulur ki, bu da 2024-cü ilə nisbətən 5,3 faiz çox deməkdir. Səhiyyə xərclərinin dövlət büdcəsində çəkisi 4,8 faiz olmaqla, 2024-cü ilə nisbətən 0,1 faizdən çox yüksələcəkdir.

Diqqətə çatdırılıb ki, sosial müdafiə və sosial təminat xərcləri üçün 4812,0 milyon manat vəsaitin ayrılması planlaşdırılır ki, bu da 2024-cü illə müqayisədə 9,6 faiz və ya 420,0 milyon manat çoxdur. Bir sıra təqaüdlərin maliyyələşdirilməsi üçün 1943,0 milyon manat, ünvanlı dövlət sosial yardımların verilməsi üçün 457,0 milyon manatın ayrılması nəzərdə tutulub. Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələrinin maliyyələşdirilməsinə nəzərdə tutulan xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1,5 faiz olmaqla 635,0 milyon manat təşkil edəcək ki, bu da cari illə müqayisədə 60,0 milyon manat və yaxud 10,4 faiz çox deməkdir. Növbəti ildə muzeylərin, qoruqların, kitabxanaların, mədəniyyət mərkəzlərinin, habelə musiqi kollektivlərinin maliyyə təminatı, kino ilə bağlı xərclər, həmçinin xarici ölkələrdəki mədəniyyət mərkəzlərinin saxlanması üçün 242,0 milyon manat nəzərdə tutulub. Bədən tərbiyəsi və gənclər siyasəti xərcləri üçün 69,0 milyon manat, cari illə müqayisədə 20,0 milyon manat, 39,5 faiz çox vəsait nəzərdə tutulub. Turizm fəaliyyətinin stimullaşdırılması üçün 65,0 milyon manatın ayrılması nəzərdə tutulub.

İclasda çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Azərbaycan Respublikasının 2025-ci il üçün dövlət büdcəsi layihəsinə dair palatanın rəyini səsləndirib. O, büdcə parametrlərini formalaşdıran makroiqtisadi proqnozlar, habelə büdcə parametrlərinin layihələndirildiyi dövrdə ölkədə makroiqtisadi meyillər barədə söhbət açıb. Büdcə zərfinə daxil edilən sənəd və göstəricilərin "Büdcə sistemi haqqında" qanuna, büdcə zərfinin "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olduğunu, büdcə sənədləşməsinin beynəlxalq təcrübəyə əsaslandığını deyib.

Palata sədri büdcənin gəlirləri və xərcləri, kəsiri, fiskal risklər, neftin qiyməti, icmal büdcənin təhlili, ortamüddətli büdcə planlaşdırılması ilə bağlı qeydlərini diqqətə çatdırıb. Vüqar Gülməmmədov bildirib ki, rəyin hazırlanması prosesində müvafiq dövlət orqanları ilə müzakirələr əsasında büdcə zərfinin məlumat və göstəricilərinə düzəlişlər edilib, Hesablama Palatasının əvvəlki göstəricilərində qeyd edilmiş məsələlər tam və ya qismən nəzərə alınıb. Təhlillər qanun layihəsində əks etdirilmiş dövlət büdcəsinin gəlir və xərclərinin əsasən düzgün proqnozlaşdırıldığını deməyə əsas verir. 2025-ci ilin baza ssenarisi üzrə proqnozları növbəti il ölkədə əlverişli makroiqtisadi mühitin, o cümlədən iqtisadi artım, məqbul inflyasiya, profisitli tədiyə balansı və sabit məzənnənin müşahidə ediləcəyini göstərir.

Sonra iclasda Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva, deputatlardan Azay Quliyev, Göydəniz Qəhrəmanov, Tənzilə Rüstəmxanlı, Azər Allahverənov, Şahin Seyidzadə, Ceyhun Məmmədov, Novruzəli Aslanov çıxış edərək, növbəti ilin dövlət büdcəsinin layihəsinin yüksək səviyyədə hazırlandığını qeyd ediblər. Çıxış edənlər təqdim olunan sənədlə bağlı bəzi fikirlərini, rəy və təkliflərini bildiriblər, suallarını səsləndiriblər.

Maliyyə naziri Samir Şərifov, mədəniyyət nazirinin müavini Fərid Cəfərov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətiriblər, səsləndirilən sualları cavablandırıblar.

Milli Məclis Sədrinin müavini Rafael Hüseynov iclasa yekun vuraraq, növbəti ilin büdcə layihəsi ilə bağlı səmərəli müzakirələrin keçirildiyini qeyd edib.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

❖ ❖ ❖

Noyabrın 20-də Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclası keçirilib.

Milli Məclis Sədrinin müavini Musa Qasımlı iclası açaraq, tədbirdə "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin birinci oxunuşda müzakirəyə çıxarıldığını deyib. O, Azərbaycanda ən yüksək səviyyədə təşkil edilən dünyanın mötəbər tədbirlərindən olan COP29-la eyni vaxtda gələn ilin büdcə layihəsinin müzakirələrinin keçirilməsini cənab Prezident İlham Əliyevin mükəmməl dövlət və hökumət idarəçiliyinin təzahürü kimi qiymətləndirib. Musa Qasımlı gələn ilin büdcə layihəsinin spiker Sahibə Qafarovanın tövsiyəsinə uyğun olaraq Milli Məclisdə səmərəli və geniş müzakirələrinin keçirilməsini parlamentlə hökumət arasında qurulmuş işgüzar münasibətlərin göstəricisi kimi dəyərləndirib.

Vitse-spiker büdcə layihəsinin qanunvericiliyə uyğun olaraq tərtib edildiyini, layihənin milli maraqlarımıza, ölkə Prezidentinin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair müəyyən etdiyi 5 Milli Prioritetə, nəzərdə tutulmuş digər dövlət proqramlarında qarşıya qoyulan hədəflərə cavab verdiyini deyib. Vurğulanıb ki, dövlətimiz və millətimiz üçün ən vacib məsələlərdən biri olan işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi və vətəndaşlarımızın dədə-baba torpaqlarına qayıtması büdcə layihəsində xüsusi yer tutur.

Bildirilib ki, dövlətimizin müdafiəsi, milli təhlükəsizliyi və inkişafı bir-biri ilə sıx şəkildə bağlı olduğundan büdcə layihəsində müdafiə və təhlükəsizliyə ayrılan vəsaitlərin artırılması ümummilli maraqlarımızın təmin edilməsinə yönəldilib. Musa Qasımlı deyib ki, vətəndaşın mənafeyi, onun sosial rifahı dövlətimizin siyasətində başlıca yerdə dayandığından layihədə sosialyönümlü xərclərin artırılması əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılmasına xidmət edir.

Musa Qasımlı bildirib ki, təhsilin hamı üçün əlçatan olması möhtərəm cənab Prezidentimiz İlham Əliyevin siyasətinin vacib tərkib hissələrindən biri olduğundan büdcə layihəsində təhsil xərclərinin 750 milyon 700 min manatının və ya 15, 2 faizinin ali təhsil və dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi üçün nəzərdə tutulması dövlətimizin vətəndaşlara, təhsil almaq istəyən hər bir şəxsə xüsusi qayğısının göstəricilərindən biridir.

Layihədə elmin inkişafına da xərclərin artırılması proqnozlaşdırılır. Həmçinin ailənin qorunmasına xüsusi diqqət yetirən dövlətimiz bu sahədə bir sıra ciddi tədbirlər görür və gələn il üçün bu məqsədlərə də vəsaitin artırılması nəzərdə tutulub. Vitse-spiker layihədə kənd təsərrüfatı sahəsinə ayrılan vəsaitin artırılmasını qeyri-neft sektorunun inkişafına və ərzaq təhlükəsizliyinin daha etibarlı təmin edilməsinə xidmət edəcəyini vurğulayıb.

Sonra iclasda maliyyə naziri Samir Şərifov "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini təqdim edib. O diqqətə çatdırıb ki, 2025-ci il üzrə dövlət və icmal büdcələrinin layihələri, sonrakı üç il üçün icmal büdcənin əsas göstəriciləri Azərbaycan Prezidenti İlham Əliyevin müəyyən etdiyi ölkəmizin prioritet inkişaf istiqamətlərini və hədəflərini özündə ehtiva edir.

2025-ci il dövlət büdcəsinin əsas parametrləri ilə bağlı diqqətə çatdırıb ki, növbəti ildə dövlət büdcəsinin gəlirləri 5,3 faiz artırılaraq 38 milyard 316 milyon manat, xərcləri isə 4,1 faiz artırılaraq 41 milyard 367,6 milyon manat proqnozlaşdırılır. O qeyd edib ki, büdcə gəlirlərinin artması ölkə iqtisadiyyatının inkişafının və dayanıqlılığının göstəricisidir. Büdcə xərclərinin artırılması isə hökumətin insanların rifah halının yaxşılaşdırılması üçün əlavə tədbirlər keçirmək və buna nail olmaq niyyətini özündə ehtiva edir.

Dövlət büdcəsinin kəsiri 3 milyard 52 milyon manat proqnozlaşdırılır ki, bu da cari illə müqayisədə 9 faizi azdır. Maliyyə naziri gəlirlərin formalaşma mənbələri və parametrləri barədə ətraflı məlumat verib, büdcə xərclərinin strukturunu diqqətə çatdırıb. Bildirilib ki, növbəti ilin prioritet xərclərində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı xərclər xüsusi əhəmiyyət kəsb edir. Qeyd edilib ki, ənənəvi olaraq 2025-ci ildə də sosialyönümlü xərclər prioritet təşkil edəcək. Növbəti ilin dövlət büdcəsində bu xərclər 16 milyard 910 milyon manat məbləğində proqnozlaşdırılır ki, bu da cari illə müqayisədə 1 milyard 370 milyon manat və ya 9 faizə yaxın çoxdur. Əməkhaqqı, pensiya və sosial müavinətlər, ünvanlı sosial yardım və təqaüd xərcləri üzrə minimum əməkhaqqı, minimum pensiya, minimum ehtiyac meyarı, yaşayış minimumunun artımları üçün müvafiq məbləğdə vəsait nəzərdə tutulub.

Növbəti ildə təhsil xərclərinə 4 milyard 946 milyon manat vəsait ayrılacaq və bu, cari illə müqayisədə 8,7 faiz çoxdur. Əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə əlçatanlığını daha da artırmaq üçün tələbə kreditlərinin verilməsi üçün növbəti ilin büdcəsində Təhsil Tələbə Kredit Fondunun nizamnamə kapitalının 126 milyon manata çatdırılması nəzərdə tutulur. Elmin maliyyələşdirilməsi üçünsə 244,4 milyon manat vəsait proqnozlaşdırılır ki, bu da 2024-cü illə müqayisədə 3,5 faiz çoxdur.

Gələn ilin büdcəsində məişət zorakılığına, insan alverinə, erkən nikaha məruz qalmış şəxslər, sağlamlıq imkanları məhdud olan şəxslər və onların ailə üzvləri ilə sosial-psixoloji, pedaqoji işin təşkili, həmçinin uşaq və ailələrə dəstək mərkəzlərinin saxlanılması ilə bağlı tədbirlər üçün 7,4 milyon manat məbləğində vəsaitin ayrılması nəzərdə tutulub. Eyni zamanda kənd təsərrüfatı xərcləri üçün 1 milyard 172 milyon manat vəsait nəzərdə tutulub. Nazir bildirib ki, kənd təsərrüfatı xərclərinin 45 faizi və yaxud 528 milyon manatı ölkənin ərzaq təhlükəsizliyi tədbirlərinin maliyyə təminatına sərf ediləcək.

Torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, müasir suvarma üsullarının tətbiqinə, subartezian quyularının saxlanılmasına və digər meliorasiya tədbirlərinə xərclərin 43,6 faizi və yaxud 511 milyon manatı yönəldiləcək. Cari illə müqayisədə bu göstərici 11 milyon manat çox deməkdir. Digər kənd təsərrüfatı tədbirləri üçün 133 milyon manat və ya xərclərinin 11,4 faizi həcmində vəsait ayrılacaq. Buraya baytarlıq tədbirləri, kənd təsərrüfatı heyvanlarının, bitkilərin sığortalanması və kənd təsərrüfatı sahəsində maddi-texniki təminatın möhkəmləndirilməsi kimi tədbirlər daxildir. Çıxışının sonunda nazir icmal büdcənin parametrlərini diqqətə çatdırıb.

Sonra elm və təhsil naziri Emin Əmrullayev çıxış edib, 2025-ci ilin dövlət büdcəsində elm və təhsilə ayrılan vəsaitlərlə bağlı fikirlərini bölüşüb. Son ildə tikilən və təmir edilən məktəb binaları və məktəbəqədər təhsil müəssisələri barədə məlumat verən nazir bildirib ki, növbəti ildə təhsil xərcləri üçün ayrılmış vəsaitin 2 milyard 395 milyon manatı və ya 47,5 faizi ümumi təhsil xərcləri üçün nəzərdə tutulub. Məktəbəqədər təhsilə 467,4 milyon manat və ya cari illə müqayisədə 3,6 faiz çox vəsait yönəldiləcək.

Təhsilin adambaşına maliyyələşməsi tədbirlərindən söz açan təhsil naziri ali təhsildə əhatəliliyin artırılmasından danışıb, peşə təhsilində keyfiyyətin artırılması üzrə planların icrasının davam etdirildiyini vurğulayıb.

Tədbirdə Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2025-ci il üçün dövlət büdcəsi layihəsinə dair palatanın rəyini səsləndirib. Palata sədri gələn il üçün dövlət büdcəsi gəlirlərinin və xərclərinin, habelə büdcə kəsiri və kəsirin maliyyələşdirilməsinin təhlilini təqdim edib, bəzi qeydlərini açıqlayıb.

Sonra iclasda Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov çıxış ediblər.

2025-ci ilin dövlət büdcə layihəsi "Büdcə sistemi haqqında" qanunun tələblərinə uyğun tərtib olunduğunu qeyd edən komitə sədrləri layihəni gələn ilin sosial-iqtisadi inkişafının maliyyə planı, həmçinin bir siyasi əhəmiyyətli sənəd kimi yüksək qiymətləndiriblər, büdcədə müdafiə və milli təhlükəsizlik məsələlərinə kifayət qədər vəsaitin ayrılmasını günün reallığından irəli gəldiyini vurğulayıblar. Çıxışlarda gələn ilin büdcə layihəsində elm və təhsilə ayrılan xərclərin artırılması təqdirlə qarşılanıb, aqrar sahəyə ayrılan xərclərin məqsədəmüvafiq olduğu, aqrar sektorun yüksəldilməsinə xidmət edəcəyi vurğulanıb, ailələrin, uşaqların sosial müdafiəsi, sosial xidmət müəssisələrinin saxlanılması kimi tədbirlərin önə çəkilməsi yüksək dəyərləndirilib. Çıxışlarda bir sıra qeyd və təkliflər səsləndirilib.

Sonra iclasda Aqrar siyasət komitəsi sədrinin müavini Razi Nurullayev, Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini Jalə Əliyeva, deputatlar Bəxtiyar Əliyev, Şahin Seyidzadə, Aydın Hüseynov, Elçin Mirzəbəyli, Ceyhun Məmmədov, Mehriban Vəliyeva, Günay Ağamalıyeva, Vasif Qafarov çıxış ediblər, 2025-ci ilin büdcə layihəsi barədə öz fikirlərini və bəzi qeydlərini bildiriblər.

Maliyyə naziri Samir Şərifov, elm və təhsil naziri Emin Əmrullayev səsləndirilən fikirlərə münasibət bildiriblər.

Milli Məclis Sədrinin müavini Musa Qasımlı iclasa yekun vuraraq növbəti ilin büdcə layihəsi ilə bağlı səmərəli müzakirələrin keçirildiyini vurğulayıb.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda Milli Məclisin deputatları, aidiyyəti qurumların struktur bölmələrinin rəhbərləri və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

COP29 Baku Azerbaijan